SUSTAINABLE DEVELOPMENT GOALS

nafas

# PARLAMENTARİLƏR ÜÇÜN BƏLƏDÇİ

# LEZBİYAN, GEY, BİSEKSUAL TRANSGENDER VƏ İNTERSEKS MƏSƏLƏLƏRİNİN EHTİVA EDİLMƏSİ ÜÇÜN SİYASƏT UYĞUNLUĞU


SUSTAINABLE DEVELOPMENT GOALS
1 YOXSULLUĞA SON
2 ACLIĞA SON
3 YAXŞI SƏHYİYYƏ VƏ RİFAH
4 KEYFİYYƏTLİ TƏHSİL
5 GENDER BƏRABƏRLİYİ
6 TƏMİZ SU VƏ SANİTARİYA
7 SƏRFƏLİ VƏ TƏMİZ ENERJİ
8 LAYİQLİ ƏMƏK VƏ İQTİSADİ ARTIM
9 SƏNAYE İNNOVASİYA VƏ İNFRASTRUKTUR
10 BƏRABƏRSİZLİYİN AZALDILMASI
11 DAYANIQLI ŞƏHƏRLƏR VƏ İCMALAR
12 MƏSULİYYƏTLİ İSTEHLAK VƏ İSTEHSAL
13 İQLİM DƏYİŞİKLİYİNƏ QARŞI MÜBARİZƏ
14 DƏNİZ EKOSİSTEMİNİN MÜHAFİZƏSİ
15 TORPAQ EKOSİSTEMİNİN MÜHAFİZƏSİ
16 SÜLH, ƏDALƏT VƏ SƏMƏRƏLİ İNSTİTUTLAR
17 MƏQSƏDLƏR ÜÇÜN TƏRƏFDAŞLIQ
SUSTAINABLE DEVELOPMENT GOALS

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Giriş | 5 |
| Keyfiyyətli Təhsil | 8 |
| İnklüziv və keyfiyyətli təhsilə necə zəmanət vermək olar | 9 |
| Sabahın Azərbaycanı | 10 |
| Layiqli İş və İqtisadi Artım | 12 |
| Hamı üçün layiqli işə necə zəmanət vermək olar | 13 |
| Sabahın Azərbaycanı | 14 |
| Bərabərsizliyin Azaldılması | 16 |
| Hamı üçün bərabərsizliyi necə azaltmaq olar | 17 |
| Sabahın Azərbaycanı | 18 |
| Sülh, Ədalət və Səmərəli İnstitutlar | 20 |
| Güclü qurumlar yaradaraq ədaləti necə təmin etmək olar yaratmaq olar | 22 |
| Sabahın Azərbaycanı | 23 |

# GİRİŞ

Dünyanı dəyişdirmək üçün qlobal təşəbbüslər daima Azərbaycanın inkişaf gündəliyində yer almış vasitələrdən biri olmuşdur. Azərbaycan Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsində fəal iştirak edib, 2000–ci ildə Minilliyin Bəyannaməsinə qoşularaq dövlət proqramlarında təsdiqlənmiş milli inkişaf strategiyasını hazırlamışdı. Beynəlxalq müqayisələr Azərbaycanın bir çox göstəricilər üzrə yaxşı nəticələr əldə etdiyini göstərir.

Azərbaycanın da dəstəklədiyi BMT–nin Dayanıqlı İnkişafa hədəfləyən 2030 Gündəliyi bütün ölkələrdən milli və beynəlxalq səviyyədə sosial ədaləti, ətraf mühitin vəziyyətini və iqtisadi dayanıqlığı yaxşılaşdırmaq üçün iddialı tədbirlər görməsini tələb edir. Hər kəsin həyatını inkişaf etdirə biləcəyi şərtləri təmin etmək üçün geniş bir beynəlxalq proqram özlüyündə böyük bir uğurdur. Proqrama 17 məqsəd daxildir və bu onu tarixdəki ən geniş səyə çevirir. Gündəlik 2030 cəmiyyəti dəyişdirmək və ciddi tərəqqi əldə etmək üçün fürsət təklif edir. Bu da hər kəs kimi LGBTİ fərdlərinin də qlobal hədəflərin həyata keçirilməsinə, hər kəsin davamlı inkişafdan tam, ədalətli və bərabər dərəcədə töhfə qazanması üçün geniş inkişaf fəaliyyətinə daxil edilməsini tələb edir.

Avropa Şurası Parlament Assambleyası (AŞPA) tərəfindən qəbul edilmiş qətnamə DİM-lərin uğurlu həyata keçirilməsində qanunverici hakimiyyət sahibi kimi milli parlamentlərin rolunu əsas vurğulayır (Qətnamə 2272 (2019)). Assambleya qəbul etdiyi qətnamədə DİM-lərin həyata keçirilmə–sində və monitorinqində milli parlamentlərin rolunun gücləndirilməsinə və parlamentlərin bu sahədə fəal iştirakına ehtiyac olduğunu vurğulayır.

Bəs parlament qanunvericilik bazasını yaradan əsas qurum kimi heç kimin geridə qalmamasını təmin etmək naminə davamlı iqtisadiyyat və tərəq–qinin təmin olunmasında  hansı həlledici rolu oynaya bilər? Və yaxud da parlamentin davamlı inkişaf sahəsindəki çatışmazlıqları aşkar etmək və aradan qaldırmaq kimi ideal bir mövqedə olmasını nəzərə alaraq LGBTİ vətəndaşların öz potensialını reallaşdıra və davamlı inkişafa töhfə verə bilməsini təmin etmək üçün parlament nələri etməlidir?

Vətəndaş cəmiyyəti olaraq biz də dayanıqlı inkişafa verə biləcəyimiz töhfə–nin məsuliyyətini dərk edirik. **İnanırıq ki, bu təlimat kitabçasında təqdim olunan tövsiyələr parlament üzvlərinə və müvafiq dövlət qurumlarına vətəndaş cəmiyyətinin inkişafı, sosial təhlükəsizlik və səhiyyə sisteminin yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi və bu inkişafın LGBTİ vətəndaşların qarşılaşdığı unikal ehtiyac və problemlərinə də cavab verməsini təmin etmək üçün yardımçı olacaq.**

# KEYFİYYƏTLİ TƏHSİL

Tədris müəssisələrində seksual oriyentasiya, gender kimliyi və özünü ifadə, cinsi xarakteristikalarına (SOGKİCX) əsaslı ayrıseçkilik təhsili yarımçıq qoyaraq vaxtından əvvəl çıxmalara, təhsildən yayınmalara səbəb olur. Təhsil sisteminin monitorinqinə əsaslanan araşdırmanın nəticələrinə əsasən çoxlu sayda LGBTİ fərdlər bullyinq, zorakılıq və ayrıseçkiliyin ən ağır formalarına məruz qalıblar.

Tədris müəssisələrində yaşanan stiqma və bullinqin səbəbi həm də tədris proqramının özüdür. Bilik və məlumatın olmaması LGBTİ yeniyetmə və gənclərin tədris müəssisələrində fiziki və emosional təcavüz, təzyiq və mobbinqlə qarşılaşmasına səbəb olur. LGBTİ fərdlər həm də intiharı düşünən və ya buna cəhd etdiyini bildirənlər arasında da çoxluq təşkil edir.

Dəfələrlə və davamlı olaraq belə bir şəraitdə olmaq təkcə öyrənməyə mane olmur, həm də psixologiya və zehni sağlamlığa təsiri edir. Tədris müəssisələrində həssas qruplarla işləmək üçün təlim keçmiş məsləhətçi və müəllim çatışmazlığı, o cümlədən, kimlikləri səbəbindən zorakılıq qurbanı olan LGBTİ fərdlərin müdafiəsi üçün praktik vasitələrin yoxluğu özünə inam və psixologiyası pozulmuş fərdlərin gələcəkdə uğur qazanmasının və nəticə etibari ilə ölkənin davamlı və dayanıqlı inkişafının bir hissəsi olmalarının qarşısını alır.

İnklüziv və bərabərhüquqlu keyfiyyətli təhsilin təmini və hamı üçün ömür boyu öyrənmə imkanlarının təbliği fundamental hüquq olmaqla yanaşı, həm də davamlı inkişaf üçün əsas amildir.

**Dövlətin heç kimi kənarda qoymadan bütün səviyyələrdə inklüziv və keyfiyyətli təhsilə zəmanət verməsi üçün:**

- Öyrənmə mühitində gender bərabərliyi, sülhü və qeyri–zorakılığı təşviq etmək üçün bullinqə qarşı qanun qəbul edilməsi;
- Bullinq, mobbinq, fiziki və emosional təcavüz və digər ayrıseçkilik for malarına məruz qalan LGBTİ fərdləri ilə həssas davranılması üçün bu istiqamətdə müəllim və məsləhətçilərin bilik və bacarıqlarını artırmaq üçün dövlət proqramını hazırlanması və tətbiqi;
- İnsan hüquqları tədrisinin təhsil planına daxil edilməsi, təhsil müəssisə–lərinin insan hüquqlarının tədrisi üçün kifayət qədər resursla təmini;
- LGBTİ fərdlərinə qarşı təhsil mühitində ayrıseçkilik edildiyini daha yaxşı başa düşmək və mübarizə yolları hazırlanması üçün tədqiqat sorğularının keçirilməsi;
- Tədris heyyəti, valideynlər üçün təlimlər və ya LGBTİ yeniyetmə və gənclərə dəstək və reabilitasiya proqramları hazırlamaq üçün LGBTİ icması ilə işləyən təşkilatlarla məsləhətləşmə və əməkdaşlıq edilməsi

**önəmlidir!**

**Sabahın Azərbaycanı**

Təhsildə gender bərabərsizliyini aradan qalxaraq həssas qruplar üçün təhsil və peşə təhsilinə bütün səviyyələrdə bərabər çıxışı təmin ediləcək. Dövlətin hər kəs üçün təhlükəsiz, zorakı olmayan, inklüziv və effektiv təhsil mühitini təmin etməsiylə Azərbaycanda ayrıseçkiliyin bütün formalarına ardıcıllıqla son veriləcək və LGBTİ yeniyetmə və gənclərin tədris mühitində qarşılaşdıqları hər cür zorakılıq əhəmiyyətli dərəcədə azalacaqdır.

Əsas azadlıqların qorunduğu və dövlət siyasəti dayanıqlı inkişaf üçün uyğunlaşdırılmış Azərbaycanda hər bir vətəndaş kimi LGBTİ fərdlər də davamlı inkişaf, insan hüquqları, gender bərabərliyi, sülh və qeyri–zorakılıq mədəniyyətinin təbliği üçün bilik və bacarıqları əldə etmiş olacaqlar.

Akademik göstərici, ixtisas və ömür boyu qazanc arasındakı sıx əlaqəni nəzərə alaraq, dövlət hamı üçün bərabər imkanları təmin edəcək və gənclərin, o cümlədən LGBTİ fərdlərin məşğulluq səviyyəsi artacaq, təhsildə olmayan hissəsi əhəmiyyətli dərəcədə azalacaqdır.

Məntiqi bir son olaraq, hər kəs Azərbaycanın sosial və iqtisadi inkişafına bərabər hüquqlu töhfə verəcək.

# LAYİQLİ İŞ VƏ İQTİSADİ ARTIM



Əmək Məcəlləsinin 16-cı maddəsi ayrı–ayrı əsaslarla ayrıseçkiliyi qadağan edir, lakin SOGKİSX əsaslı ayrıseçkiliyin heç bir açıq qadağası indiyə qədər Əmək Məcəlləsinə əlavə edilməyib.

2013-cü ildə Nəfəs LGBT tərəfindən aparılmış sorğunun nəticələrinə əsasən, biz Azərbaycanda işgüzar mühitin əlverişli olmadığı qənaətinə gələ bilərik. Respondentlərin 64%-i LGBTİ şəxslə birlikdə işləmək istəmədiyini, 60%-nin mənfi rəftarda olduğunu, 60%-ı isə işə götürməyəcəyini bildirib.

LGBTİ fərdlər öz kimliklərini gizlətmək məcburiyyətində olmasaydılar iş yerindəki ayrıseçkilik göstəricilərinin əhəmiyyətli dərəcədə çox olacağını qeyd etmək vacibdir. Bu qorxu öz kimliyi barədə susqunluğun aludəçiliyi ilə yanaşı, stresə səbəb olur və fərdin məhsuldarlığına və komanda tərkibində işləmək qabiliyyətinə mənfi təsir göstərir.

Gender kimliyinin hüquqi tanınmasının olmaması, gender kimliyi və ifadəsi ilə sənədlərdə göstərilən cins/gender fərqlilikləri arasında yaranan uyğunsuzluq transgender və interseks şəxslərin əmək bazarına effektiv çıxışına mane olur.

Seksual oriyentasiyası aşkar edilən hər bir homoseksual kişi 18B (orta dərəcəli şəxsiyyət pozuntuları, şəxsiyyətin patoloji inkişafı ...) diaqnozu ilə psixoloji dispanserə yönləndirilir. Təcrübədə işəgötürən tərəfindən hər bir kişi vətəndaşdan hərbi xidmət sənədi istənildiyi üçün 18B təsbiti əmək bazarına çıxışı mümkünsüz edir.

**Dövlətin heç kimi kənarda qoymadan hamı üçün layiqli işə zəmanət verməsi və iqtisadi artıma tam nail olunması üçün:**

- İşə münasibətdə LGBTİ vətəndaşları da daxil olmaqla, bütün üstünlükləri olmayan və ya marginallaşmış şəxslərə və ya qruplara qarşı ayrıseçkilik və sosial stiqmanın qarşısının alınmasında ictimaiyyəti hədəfləyən məlumat–landırma proqramlarını aparmaq üçün kifayət qədər büdcə təmini;

- Transgender və interseks fərdlərin işə düzəlmə imkanlarını təmin etmək məqsədi ilə ən yaxşı beynəlxalq təcrübəyə dayanan gender kimliyinin hüquqi tanınması üçün qanunvericilikdə zəruri islahatların aparılması;

- LGBTİ fərdlərinin həm dövlət, həm də özəl sektorda işə götürülməsi, işdə saxlanılması və vəzifə yüksəlişi ilə məşğulluğun bütün sahələrində ayrı–seçkilik edilməməsini təmin etmək üçün effektiv strategiyalar, siyasətlərin qurulması;

- Aparılan iqtisadi islahatlar zamanı LGBTİ vətəndaşların da ehtiyaclarının nəzərə alındığına və qarşılandığına əmin olmaq üçün, LGBTİ icması ilə işləyən təşkilatların da konsultasiyaya cəlb edilməsi və əməkdaşlıq edilməsi

**önəmlidir!**

**Sabahın Azərbaycanı**

Siyasi ardıcıllığı artırmaq və ayrı–seçkiliyə yol verməyən qanunların möv–cudluğu və davamlı inkişaf siyasətinin həyata keçirilməsi sayəsində inklüziv və davamlı iqtisadi böyüməyə, tam və məhsuldar məşğulluğa və hamı üçün layiqli iş yerlərinə nail olunur. Bu da Azərbaycanda bütün insanlar üçün ifrat yoxsulluğun aradan qalxmasına töhfə verir.

Azərbaycan hər bir vətəndaşın, xüsusən, yoxsul və həssas qrupların da iqti–sadi resurslara bərabər hüquqlara sahib olduğu bir ölkəyə çevrilir. Nəticədə, iqtisadi gəliri artan hamının, o cümlədən LGBTİ fərdlərin, adekvat, təhlükəsiz və əlverişli mənzil və təməl xidmətlərə çıxışı əl çatan olur.

Təhlükəsiz, inklüziv və effektiv təhsil mühitlərinə çıxış imkanlarının təmin edilməsi  yalnız marginallaşmış qrupların, o cümlədən LGBTİ fərdlərin məşğulluq, təhsildə iştirak payını əhəmiyyətli dərəcədə yüksəltmir, həm də Azərbaycanın iqtisadi artımının tam əldə edilməsinə səbəb olur.

Hər kəsi daxil edən sosial müdafiə siyasətinin mövcudluğu sayəsində hər bir vətəndaşın ayrı-seçkilik edilmədən əmək hüquqları qorunur və Azərbay–can bütün işçilər üçün təhlükəsiz və etibarlı iş mühitinin inkişafına zəmanət verən bir ölkəyə çevrilir.

# BƏRABƏRSİZLİYİN AZALDILMASI

Əgər onu təşkil edən elementlərdən biri unudular və ya ayrıseçkilik və zorakılığa məruz qalarsa, heç bir cəmiyyət inkişaf edə və güclənə bilməz. Bərabərsizlik, ayrıseçkilik və zorakılıq təkcə ÜDM-in itirilməsinə deyil, həm də xərclərin artmasına və insan potensialının itirilməsinə səbəb olur.

LGBTİ fərdləri istər təhsil müəssisələrində baş verən zorakılıq və bullinq, istər bərabər məşğulluq imkanlarının olmaması, səhiyyə xidmətindən istifadə edə bilməmək və ya onların ailə birləşmələrinin tanınmaması daxil olmaqla ümumilikdə həyatın istənilən seqmentində əhəmiyyətli dərəcədə ayrıseçkilik və bərabərsizliklə üzləşirlər.

Bu bərabərsizlik həm də yoxsulluğu artırır, səhiyyə, təhsil və iş mühitində zəif nəticələrə səbəb olur, gender bərabərliyini pozur, zorakılığı rasionallaşdırır və ümumilikdə davamlı tərəqqini pozur.

Cəmiyyətdə LGBTİ fərdlərinə qarşı mövcud olan dözümsüzlük heç bir vəchlə müşahidə olunan bərabərsizliyi legitimləşdirə bilməz. Davamlı inkişafa nail olmaq üçün üzərinə düşən vəzifəni yerinə yetirməli olan dövlət hamının sosial, iqtisadi və siyasi inklüzivliyini təmin etmək və inkişaf etdirmək üçün səylə çalışmalıdır.

**Dövlətin heç kimi kənarda qoymadan bərabərsizliyi aradan qaldırması üçün:**

- Bərabərsizliyi azaltmaq, sosial təminat, səhiyyə və təhsilə bərabər çıxışı təmin etmək məqsədilə siyasətləri və onun icra mexanizmlərini heç kəsi kənarda qoymayan dayanıqlı inkişafın prinsipinə uyğunlaşdırılması;

- İslahatların LGBTİ vətəndaşların da üzləşdiyi bərabərsizlikləri aradan qalxdıracağından əmin olmaq üçün LGBTİ icması ilə işləyən təşkilatların sosial siyasət quruculuğu prossesinə cəlb edilməsi və əməkdaşlıq edilməsi;

- Hər kəsin ailə birləşməsindən törəyən sosial və iqtisadi hüquqlara bərabər girişini təmin etmək üçün hamının bərabər nigah və ya birliklərinin qeydiyyata alınmasını tənzimləyən müvafiq qanunvericilik islahatlarının aparılması;

- Hamının sosial, iqtisadi və siyasi inteqrasiyasını təşviq edən LGBTI birliklərin rəhbərlik etdiyi kampaniyaların dəstəklənməsi, o cümlədən, LGBTİ fərdlərinə qarşı davamlı ayrı-seçkiliyin aradan qaldırılması, bərabərsizliyin azaldılması, xüsusilə, məşğulluq, sosial təminat, səhiyyə və təhsilə çıxış məsələlərini həll etmək məqsədi ilə maarifləndirmə kampaniyaların təşkili və resurs təminatı;

- SOGKİCX də daxil olmaqla çoxistiqamətli məlumatların toplanması və təhlilinin təkmilləşdirilməsi

17

**önəmlidir!**

**Sabahın Azərbaycanı**

Hamını əhatə edən sosial, iqtisadi və siyasi inteqrasiyasının gücləndirilməsi və təşviq edilməsi, o cümlədən ayrıseçkilik hallarına səbəb olan qanunlar və onların icra mexanizmlərində mövcud olan boşluqların aradan qaldırılması nəticəsində Azərbaycanda bütün insanların, xüsusilə də, yoxsullar və həssas qruplar iqtisadi mənbələrə bərabər hüquqlara malik olacaq.

Azərbaycan əhalisi keyfiyyətli zəruri tibbi xidmətlərə və təhsilin bütün səviyyələrinə və peşə təhsilinə ayrıseçkiliklə üzləşmədən bərabər çıxış əldə edəcəkdir.

Hər kəsin ehtiyaclarını qarşılayan sosial müdafiə siyasətinin uğurlu icrası nəticəsində Azərbaycan hər kəsin əmək hüquqları qorunduğu, ayrı-seçkilik olmadan adekvat, təhlükəsiz və əlverişli mənzil və əsas xidmətlərdən istifadə edə biləcəyi bir ölkəyə çevriləcək.

# SÜLH, ƏDALƏT VƏ SƏMƏRƏLİ İNSTİTUTLAR

Hər kəsin seksual oriyentasiyasından, gender kimliyindən və ifadəsindən
və cinsiyyət xüsusiyyətlərindən asılı olmayaraq ayrı-seçkilik olmadan azad
yaşamaq hüququ var.

Nəzəri cəhətdən hər kəs üçün bərabərliyə zəmanət verilsədə, təcrübədə
SOGKİCX-in əsasları görünməz olaraq qalır və qanunvericilik bu əsasda
ayrıseçkilik etməmək məsələsinə birbaşa toxunmur. LGBTİ şəxslərinin
cəmiyyətdə kimlikləri səbəbindən ədalətsizlik, zorakılıq və ayrıseçkiliklə
qarşılaşması onların yaşamına və dayanıqlı inkişafa verə biləcəkləri töh–
fəyə mənfi təsir göstərir.

Həmcins birliklərin qanuni tənzimlənməsi üçün normativ hüquqi aktların
olmaması həmin fərdlərin ailə ilə əlaqəli sosial və iqtisadi hüquqlara çıxı–
şını məhdudlaşdırır. Bundan əlavə, hər cür ayrıseçkilik davranışları kimi,
SOGKİCX–ya əsaslanan ayrıseçkilik və qərəz fərdin iş yerini itirməsinə,
evsizliyə və məcburi köçkünlüyə səbəb ola bilir.

Mövcud qanunvericilik və hüquqi çərçivədəki ümumi dil onların icra
mexanizmi zamanı intepretasiyalara şərait yaradır. Bu da təbii ki, LGBTİ
fərdlərin ədalətə çıxış imkanlarını tamamilə məhdudlaşdırır. Faktiki olaraq
yerli qanunvericilikdəki ayrıseçkiliyə qarşı müddəalar SOGKİCX əsaslı ayrı–
seçkiliyin qadağan edilməsinə birbaşa toxunmur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 283-cü maddəsi nifrət nitqini yalnız milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması kontekstində cinayət saysada nifrət cinayətləri və nifrət nitqi isə cinayət qanunu tərəfindən hüquqi anlayış kimi qəbul edilmir.

Davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində hədəf qruplarını bu prosesə cəlb etmək üçün çalışan vətəndaş cəmiyyəti təşkilatlarının önəmini vurğulayaraq qeyd etmək lazımdır ki, bu gün Azərbaycanda LGBTİ qeyri–hökumət təşkilat(lar)ı (QHT) qeydiyyata alınmaqda məhdudlaşdırılmalar ilə üzləşir.

Hüquqi tanınma fərdin kimliyinə, sosial vəziyyətinə və əldə edə biləcəyi həyat keyfiyyətinə əsaslı təsir göstərir. Gender kimliyinin hüquqi tanınma–ması transgender və interseks fərdlərin əmək bazarına, adekvat, keyfiyyətli səhiyyə xidmətlərinə effektiv çıxışına maneə yaradır.

Həmcins münasibətləri cəzalandıran qanunlar olmasa da, nifrət cinayət–lərinin miqyası və narahat edici polis zorakılığı, həbs, şantaj, döyülmə, işgəncə və cinsi istismar şəklində qanunsuz olaraq güc tətbiq etmə və vəzifə səlahiyyətlərindən sui–istifadə olunması kimi mövcud nümunələr hüquqmühafizə orqanlarına qarşı müdafiəsizlik mühiti və etibarsızlıq hissinin yaranmasına səbəb olur.

**Dövlətin heç kəsi kənarda qoymadan sülhə nail olması, ədaləti təmin etməsi və güclü qurumlar yaratması üçün:**

- İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) səlahiyyətinə SOGKİCX daxil edilməsi;
- Nifrətə əsaslanan hərəkətlərin və çıxışların monitorinqi və qeydə alınması mexanizmlərini özündə cəmləşdirən, LGBTI şəxsləri də daxil olmaqla bütün insanları qoruyan nifrət cinayəti və nifrət nitqinə dair qanunun qəbulu;
- SOGKİSX əsaslı ayrıseçkilik və nifrət cinayətinə qarşı həssaslıq və təsirli reaksiya mövzusunda polis və digər hüquq-mühafizə orqanları üçün təlim proqramlarının təşkili üçün lazımi büdcə təminatı;
- Gender kimliyinin hüquqi tanınması prossesinin sürətli, şəffaf, əlçatan olması, bu tanınmanın məcburi cinsiyyət dəyişdirmə əməliyyatından asılı olmaması;
- LGBTİ vətəndaşların ədaləti mühakimə, mənzil, məşğulluq, səhiyyə, təhsil xidmətlərinə bərabər çıxışını təmin edən və homoseksual birliklərin hüquqi tanınmasını təmin edən hüquqi islahatların aparılması;
- LGBTI təşkilatları və birliklərinin siyasət quruculuğu və icrası prossesinə cəlb edilməsi və əməkdaşlıq edilməsi;

**önəmlidir!**

**Sabahın Azərbaycanı**

Qanunun aliliyinin təbliği və ayrıseçkiliyə yol verməyən qanunların və siyasətlərin tətbiqi nəticəsində  Azərbaycan ədalətə bərabər çıxışı təmin edən və insan hüquqlarına hörmətlə yanaşan, bütün səviyyələrdə təsirli qanun və yaxşı idarəetmə, şəffaf və hesabatlı təşkilatlar üzərində qurulan dinc və inklüziv bir cəmiyyətə çevrilir. Heç kim geridə qalmasın prinsipini əsas tutaraq insan haqlarını təbliğ və ədalətli təmin edən güclü və etibarlı dövlət qurumların sayəsində sülh və təhlükəsizlik təmin ediləcək. Polis və digər hüquq–mühafizə orqanları SOGKİSX əsaslı ayrıseçkilik və nifrət cinayətlərinə həssaslıqla və təsirli şəkildə cavab verəcək.

Təhsildə gender bərabərsizliyinin aradan qalxması və həssas qruplar üçün bütün səviyyələrdə təhsil və peşə təhsili üçün bərabər imkanların mövcudluğu sayəsində hamı üçün təhlükəsiz, zorakı olmayan, inklüziv və effektiv təhsil mühiti təmin edilir. Əsas azadlıqlar, xüsusilə, seksual və reproduktiv sağlamlıq və reproduktiv hüquqların təmin edilməsi nəticəsində Azərbaycan hamı üçün, o cümlədən LGBTİ fərdlər üçün universal tibbi təminatın əldə ediləcəyi ölkəyə çevrilir.

Azərbaycan həm də LGBTİ fərdlərin ayrıseçkiliklə üzləşmədiyi tam və məhsuldar məşğulluq və layiqli iş, adekvat, təhlükəsiz və əlverişli mənzil və əsas xidmətlərə çıxışı timsalında ən yaxşı hüquq təcrübələrini bölüşəcək ölkələrdən birinə çevrilir.

PARLAMENTARİLƏR ÜÇÜN BƏLƏDÇİ

# LEZBİYAN, GEY, BİSEKSUAL, TRANSGENDER VƏ İNTERSEKS MƏSƏLƏLƏRİNİN EHTİVA EDİLMƏSİ ÜÇÜN SİYASƏT UYĞUNLUĞU

**Müəllif** Cavid Nəbiyev
**Köməkçi** Məhəmməd Kekalov
**Redaktə** Lalə Mahmudova
**Tərcüməçi** Vahid Ali
**Qrafiq dizayner** Adila Seyid
**İllüstrasiya** Dayanıqlı İnkişaf Məqsədləri (DİM), BMT-nin Kommunikasiya materialları

**Yayımlama** Nəfəs LGBT Azərbaycan Alyansı, Sentyabr 2019
**Hüquqlar** Nəşrdən istifadə yalnız onu yayımlayan tərəfə, başlıq və tarixə istinad edildiyi təqdirdə mümkündür.